# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

## YAP nümayəndə heyətinin Çin Xalq Respublikasına səfəri başa çatıb



4

№ 038 (7448)

SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

19 may 2026-cı il.
Qiyməti 1 manat

# Azərbaycan Prezidenti: “Biz müasir şəhərsalmanın yeni nümunələrini yaratmışıq”

Bakıda BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının açılış mərasimi keçirilib




2

# Moskvanın Cənubi Qafqaz arzusu - HƏDƏF NƏDİR?









6

## “Qlobal şəhər gündəliyinin gələcək konturları Azərbaycanda formalaşdırılır”



6

## Ebola təhlükəsi: dünya yeni xəstəliyin astanasındadır?



7

## Mədə xorası - hansı hallarda TƏHLÜKƏ BAŞLAYIR?



8

## İlanın ağına da, qarasına da...



4

## AİLƏ: səadətin ünvanı



6

# Azərbaycan Prezidenti: “Biz müasir şəhərsalmanın yeni nümunələrini yaratmışıq”

## Bakıda BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının açılış mərasimi keçirilib

***Mayın 18-də Bakıda BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının açılış mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbax Sessiyada iştirak edən dövlət və hökumət başçılarını, nümayəndə heyətlərinin rəhbərlərini qarşılayıblar. Sonra BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) tərəfindən hazırlanmış, WUF13-ün açılışına həsr olunmuş videoçarx nümayiş etdirilib və mədəni proqram təqdim olunub.***














Dövlətimizin başçısı tədbirdə çıxış edib. Prezident qeyd edib: ”Bu dəfə biz (WUF13-də) rekord sayda iştirakçıları qəbul edirik. Bu, 2-ci ən böyük beynəlxalq tədbirdir ki, COP29-dan sonra Azərbaycanda keçirilir. Bakıda keçirdiyi bu günlər ərzində bir çox qonaqlarımız, ilk dəfə səfər edən qonaqlar ölkəmizi daha yaxşı tanıyacaqlar və Azərbaycanda şəhərsalma sahəsində görülən işlərlə daha yaxından tanış olacaqlar”.

Bu ilin Azərbaycanda ”Şəhərsalma və Memarlıq İli” elan olunduğunu da diqqətə çatdıran Azərbaycan lideri qeyd edib: ”Bakı həm qədimlik, həm yenilik, həmçinin tarixi irsin qorunması, həm müasir üslubda şəhərsalmanın inkişafı baxımından aydın şəkildə onu göstərir ki, bizim ulu babalarımızın istedadı olub, tarixi və memarlıq irsimizi qoruyub saxlayırıq”. Prezident İlham Əliyev Bakıda həyata keçirilən Ağ Şəhər və ”Sea Breeze” layihələrinə də toxunub.

Çirkləndiyi üçün əvvəllər ərazinin ”Qara şəhər” adlandırıldığını söyləyən dövlətimizin başçısı deyib: ”İndi isə biz müasir şəhərsalmanın nümunəsi Ağ şəhəri yaratmışıq”. Prezident müasir şəhərsalmanın inkişafının digər təzahürü kimi isə ”Sea Breeze”i qeyd edib və qonaqlara sahilyanı zonada yerləşən həmin yerə baş çəkməyi tövsiyə edib.

Azərbaycanın Avropa ilə Asiya arasında yerləşdiyini vurğulayan dövlətimizin başçısı bunun bizim memarlığımızda da öz təzahürünü tapdığını qeyd edib. Prezident İlham Əliyev Azərbaycanın qədim məkanları barədə danışıb: ”Bu gün Gəncə Bakı kimi öz tarixi simasını qoruyub saxlayır. Qəbələ, Şəki paytaxt olub və Qafqaz Albaniyasının mərkəzlərindən olublar. Bir çox tarixi abidələr var. Şəkinin Kiş kəndində olan kilsə bəlkə də dünyanın ən qədim kilsələrindən biridir. Bizim ulu babalarımızın istedadı, həmçinin məhz Lahıc qəsəbəsində görünür. Kəndin yarandığı əsrdə məhz kanalizasiya sistemi qurulmuşdu və o, bu günə qədər işləyir”.

Qarabağın və Şərqi Zəngəzurun 30 ilə yaxın Ermənistanın işğalı altında olduğunu xatırladan Prezident İlham Əliyev orada hərtərəfli miqyaslı dağıntılar olduğunu bildirib. Ziyarətçilərin Ağdamı Xirosimaya bənzətdiklərini də vurğulayan Prezident qeyd edib: ”Biz onu ”Qafqazın Xirosiması” adlandırırıq, çünki şəhər demək olar ki, mövcud deyil.

*Ardı Səh. 3*

### *Rəsmi xronika*

Azərbaycan Prezidenti İlham Əliyevin mayın 18-də Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə görüşü olub.

***

Mayın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bolqarıstan Respublikasının Prezidenti İliyana Yotova ilə görüşüb.

***

Prezident İlham Əliyev mayın 17-də Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiçlə görüşüb.

***

Azərbaycan Prezidenti İlham Əliyev mayın 17-də Birləşmiş Ərəb Əmirliklərinin energetika və infrastruktur naziri Suhail Al Mazroueini qəbul edib.

***

Prezident İlham Əliyev mayın 17-də Türkmənistan Prezidentinin yanında Arkadağ şəhərinin Tikinti üzrə Dövlət Komitəsinin sədri Deryageldi Orazovu qəbul edib.

***

Azərbaycan Prezidenti İlham Əliyev mayın 17-də Keniya Respublikasının Prezidenti Uillyam Samoei Rutonun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

***

Azərbaycan Prezidenti İlham Əliyev mayın 17-də Esvatini Kralı Əlahəzrət III Msvatinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

***

Azərbaycan Prezidenti İlham Əliyev mayın 17-də Pakistan İslam Respublikasının Pəncab əyalətinin Baş naziri Məryəm Nəvaz Şərifin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

***

Prezident İlham Əliyev mayın 16-da BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbaxı qəbul edib.

# Azərbaycan Prezidenti: "Biz müasir şəhərsalmanın yeni nümunələrini yaratmışıq"

## Bakıda BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının açılış mərasimi keçirilib

Əvvəli Səh. 2

Hazırda hökumətin qarşısında duran əsas vəzifələrdən biri Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulmasıdır".

Dövlət başçısı vurğulayıb ki, Azərbaycanda şəhərsalmanın inkişafı sürətlə gedir: "Belə mühüm tədbir çərçivəsində bizim BMT-dən olan ekspertlərin dəstəyi və çoxsaylı qonaqların iştirakı ilə görüşümüz imkan yaradacaq ki, bir-birimizdən daha çox şey öyrənək, müsbət təcrübədən yararlanaq və həmçinin səhvlər haqqında danışaq".




O, Bakıda aparılan müasir şəhərsalma prosesindən misallar gətirib: "Bakı dünyada ilk şəhərdir ki, 1846-cı ildə neft hasil olunub. Bütün bu illər ərzində ətraf mühitin mühafizəsinə o qədər diqqət yetirilməyib, torpaq və hava çirklənib. Bakının bir yerində "Qara şəhər", Bibiheybət, Böyükşor. Bəlkə də bir çoxları üçün bu adlar heç nə demir. Amma vaxtınız varsa, bu yerləri ziyarət edin və 20 il əvvəl necə göründüklərini və iş görüldükdən sonra hansı görünüşə sahib olduqlarını göstərən foto və videolara baxın. Təbii, bu da göstərir ki, Bakıda və respublikanın digər yerlərində bu işlər aparılır. Hazırda şəhərsalmanın inkişafına olan ehtiyacı biz çox yaxşı başa düşürük, xüsusilə də bu, paytaxt şəhərləri üçün keçərlidir. Ona görə də biz, ilk növbədə, cəsarətli, eyni zamanda, ehtiyatlı yanaşma həyata keçirməliyik.






Biz qədim tariximizlə qürur duyuruq. Bütün bunlar bizim, sadəcə, musiqi və şeirimizdə deyil, eyni zamanda, memarlıq abidələrimizdə öz əksini tapmaqdadır. Bizim vəzifəmiz bunları növbəti nəsillər üçün qorumaqdır və əminik ki, növbəti nəsillər də öz vəzifələrini yerinə yetirəcəklər".



Azərbaycan Prezidenti müasir şəhərsalmanın vacibliyini vurğulayıb: Bu gün qlobal tədbiri təşkil etməklə biz şəhərsalmanın inkişafına böyük sadiqliyimizi nümayiş etdiririk. 2022-ci ildən etibarən biz 3 Milli Şəhərsalma Forumunu təşkilatla (UN-Habitat ilə- red.) birgə keçirmişik. Ağdamda, Zəngilanda və Xankəndidə tədbirlər təşkil olunub. Həmin şəhərlər uzun illər ərzində işğal altında olmuşdur. Bu gün qlobal tədbiri təşkil etməklə biz bir daha şəhərsalmaya, onun inkişafına olan böyük sadiqliyimizi nümayiş etdiririk. Şəhərsalma nəinki Bakı üçün, bir çox Azərbaycan şəhərləri üçün elə bir məsələdir ki, biz gündəlik əsaslarla onun üzərində işləyirik".

Sonra BMT-nin Baş katibi Antonio Quterreşin və BMT Baş Assambleyasının prezidenti Annalena Berbokun tədbir iştirakçılarına videomüraciətləri nümayiş olunub.

BMT-nin Baş katibi Antonio Quterreş qeyd edib: Siz qlobal böhranlar, münaqişələr, artan enerji xərcləri və bahalaşan ərzaq qiymətləri dövründə görüşürsünüz". O, bugünkü gündəliyin daha az danışılan qlobal mənzil böhranına yönəldiyini vurğulayaraq əlavə edib: "Mənzil təminatı bir insan hüququdur və insan ləyaqəti üçün fundamental əhəmiyyət daşıyır. Ümumdünya Şəhərsalma Forumu həmin məqsədləri reallığa çevirmək üçün bir təkan olacaq".

BMT Baş Assambleyasının prezidenti Annalena Berbok qeyd edib ki, WUF13 mənzil böhranı ilə bağlı fəaliyyətləri gücləndirmək üçün imkan yaradır: "Hər kəs üçün əlçatan, təhlükəsiz və layiqli mənzil təminatı fundamental insan hüququdur. Bu, ləyaqətin, sağlamlığın, təhlükəsizliyin və imkanların təməlidir. Lakin bu gün həmin təməl hələ də həddindən artıq çox insan üçün əlçatmaz olaraq qalır; 1,1 milyarddan çox insan hələ də qeyri-rəsmi qəsəbələrdə və ya gecəqondularda yaşayır, 300 milyondan çox insan isə evsizdir. Bunun fəsadları yalnız mənzillə məhdudlaşmır, daha geniş miqyasa yayılır. Təhlükəsiz mənzil olmadıqda sağlamlıq pisləşir, təhsil pozulur, təhlükəsizlik hissi zəifləyir, bərabərsizlik dərinləşir və icmalar iqlim şoklarına və fəlakətlərə qarşı daha aciz olurlar".

O bildirib ki, Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası mühüm bir məqama təsadüf edir: "Bu, mənzil böhranı ilə bağlı fəaliyyətləri gücləndirmək və eyni zamanda, bu işi dayanıqlı urbanizasiyanın daha geniş çağırışları ilə əlaqələndirmək üçün bir imkan yaradır. Gəlin dürüst olaq: bu miqyasda bir böhranın sadə həlli yoxdur. Daha çox ev tikmək vacibdir, lakin bu, təkbaşına kifayət etməyəcək. Mənzil təminatını infrastruktur, əsas xidmətlər, iqlimə dözümlülük, maliyyələşdirmə və inklüziv planlaşdırma ilə əlaqələndirilən sistemli yanaşmaya ehtiyac var. Belə bir yanaşma həm də geniş iştirakçılıqdan asılıdır, çünki dayanıqlı şəhər inklüzivliyini və inkişafını təkcə hökumətlər təmin edə bilməz. Bu, yerli hakimiyyət orqanlarının, icmaların, vətəndaş cəmiyyətinin, özəl sektorun, ekspertlərin, eləcə də sakinlərin özlərinin yaşadıqları şəhərlərin formalaşmasına kömək etməsini tələb edir".

BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) Assambleyasının prezidenti Nqa Kor Minqin və BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbaxın çıxışları dinlənilib. Forumda mövzu ilə bağlı çoxsaylı çıxışlar olub, müzakirələr aparılıb. Forumun müasir şəhərsalmanın inkişafına yüksək töhfələr verəcəyi qeyd olunub.

***Elçin Bayramlı***

# YAP nümayəndə heyətinin Çin Xalq Respublikasına səfəri başa çatıb



Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti Çin Xalq Respublikasına səfəri çərçivəsində Çin Kommunist Partiyası (ÇKP) Şensi vilayət təşkilatının katibi, Şensi vilayəti Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Çjao İde ilə görüşüb. Qarşılıqlı etimada söykənən çoxşaxəli əməkdaşlığın hər iki ölkənin xarici siyasətinin əsas prioritetlərindən biri olduğu qeyd edilib. Son illərdə sürətlə inkişaf edərək hərtərəfli strateji tərəfdaşlıq mərhələsinə yüksəlmiş dövlətlərarası münasibətlərin nümunəvi xarakter daşıdığı və geniş perspektivlərə malik olduğu bildirilib.





Azərbaycan-Çin münasibətlərinin mühüm istiqamətlərindən biri kimi YAP ilə ÇKP arasında əməkdaşlığın xüsusi diqqət mərkəzində olduğu qeyd edilib. 2024-cü ilin noyabr ayında imzalanmış Əməkdaşlıq memorandumunun partiyalararası əlaqələrin siyasi və hüquqi əsaslarını daha da möhkəmləndirdiyi, yeni imkanlar yaratmaqla tərəfdaşlıq münasibətlərinin inkişafına təkan verdiyi bildirilib. YAP nümayəndə heyətinin Çinə səfəri çərçivəsində keçirilmiş məhsuldar görüşlərin ölkələr və partiyalar arasında əməkdaşlığın dərinləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıdığı vurğulanıb. Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası ilə ÇKP Mərkəzi Komitəsinin Partiya Məktəbi arasında Anlaşma Memorandumunun imzalanmasının kadr hazırlığı sahəsində təcrübə mübadiləsinə təkan verəcəyinə inam ifadə olunub.






Görüşdə yeni geosiyasi reallıqlar fonunda istər Cənubi Qafqaz regionunun aparıcı dövləti olan Azərbaycanın, istərsə də dünyada əsas güc mərkəzlərindən biri kimi çıxış edən Çinin özünəməxsus inkişaf modelinə malik olduğu nəzərə çatdırılıb. Hər iki ölkənin tərəqqi yolunun, o cümlədən əldə etdiyi sosial-iqtisadi nailiyyətlərin beynəlxalq səviyyədə böyük maraq doğurduğu və diqqətlə izlənildiyi bildirilib.



Görüş əsnasında Azərbaycan ilə Çinin qardaşlaşmış şəhərlər təcrübəsinə malik olduğu qeyd edilərək regionlararası əməkdaşlıq məsələlərinə də toxunulub. İqtisadi-ticari, turizm, elmi-texniki tərəqqi, təhsil, rəqəmsal texnologiyalar, mədəniyyət və digər sahələrdə mövcud potensialdan daha geniş istifadənin vacibliyi vurğulanaraq sürətli qlobal transformasiyalar dövründə səmərəli investisiya siyasətinin əhəmiyyəti qeyd edilib. Xüsusilə, Sian şəhərinin Çinin ən böyük logistika mərkəzlərindən biri kimi bu prosesdə roluna diqqət çəkilib.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri fonunda ”ağıllı şəhər” və ”ağıllı kənd” konsepsiyalarının uğurla tətbiq edildiyi bildirilib. Çin şirkətlərinin innovativ texnologiyalar, infrastruktur quruculuğu, alternativ enerji, nəqliyyat və sənaye layihələri çərçivəsində bu prosesdə iştirak imkanları müzakirə olunub.

Tərəflər yüksəksəviyyəli siyasi dialoq şəraitində nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin davam etdirilməsinin və ümumi maraq doğuran məsələlər üzrə təmasların daha da gücləndirilməsinin vacibliyini qeyd ediblər.

Hər iki ölkənin sosial-iqtisadi inkişaf prioritetlərinə uyğun olaraq gələcəyə yönəlik hədəflərin və bu xüsusda yeni işbirliyi imkanlarının müzakirə olunduğu görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

Nümayəndə heyətinin Şensi vilayətində humanoid robotlar istehsal edən ”Zhilaite” texnoloji şirkətinə, Çin-Avropa qatarları üzrə logistika mərkəzinə, Sian Böyük Məscidinə və Sin Şixuandi İmperiya Muzeyinə, o cümlədən Terrakota Ordusu Muzeyinə ziyarəti də təşkil olunub.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Çinin ”Şensi” televiziya kanalına müsahibəsində səfərin yekunlarına, eləcə də istər ölkələr, istərsə də partiyalar arasında əməkdaşlığın mövcud vəziyyəti və perspektivlərinə dair fikirlərini bölüşüb. Mayın 15-də YAP nümayəndə heyətinin Çin Xalq Respublikasına səfəri başa çatıb.



Vəli Vəliyev

# İlanın ağına da, qarasına da...

### Yaxud, Ruben Vardanyanı namizəd göstərənlərin ünvanına bir neçə söz

Ermənistanda parlament seçkilərini ən kritik dönəmi başlayıb. 29 partiya və fraksiyalar tərəfindən seçicilər üzərində yeni və amansız eksperimentlər aparılır. Dünyada mövcud olmayan, həlli mümmkünsüz olan min bir vədlər verilir, Ayı yerə endirəcəyəm, Günəşi buxovlayıb sandığa salacağam və s., və ilaxır, bir sözlə sərsəmləmələr. Amma iki mövzu ətrafında mübarizə diqqəti daha çox cəlb edir: Qarabağ və Bakıda həbsxana həyatı yaşayan separatçılar. Hər partiya və blok seçicilərinə bu məsələlərin həlli vədini verir. Sual olunur, necə?

Rusiyanın emissarı Samvel Karapetyan deyib ki, ”mənim komandam Bakıdan erməni əsirlərin qaytarılması məsələsini həll etməyə qadirdir”. ”Güclü Ermənistan” partiyasının lideri ”vətəndaşlarının maraqlarını qorumadığına görə” mövcud hökuməti sərt tənqid edərək, xüsusi komissiya yaradacağını və bütün beynəlxalq əlaqələrdən istifadə edərək həmvətənlərinin tezliklə azad edilməsini təmin edəcəyinə söz verib. Rusiyanın ”adamı” 17 mayda Lori bölgəsinin sakinləri ilə görüşündə bildirib ki, yalnız onun komandası saxlanılanların qaytarılması məsələsini effektiv şəkildə həll etməyə qadirdir. O, əmindir ki, dövlətin bütün əvvəlki hərbi və siyasi nailiyyətləri mövcud rəhbərliyin səriştəsizliyi üzündən ləğv edilib. Böhranı həll etmək üçün partiya lideri həm Bakı ilə birbaşa dialoq, həm də beynəlxalq təşkilatlarla məhbus məsələsinə xüsusi diqqət yetirən ayrıca bir işçi qrupu yaratmaq niyyətindədir. Erməni lobbisinin tapşırığı ilə bir qrup şəxs, əslində onları çevrələrindən başqa kimsə tanımır, bir araya gələrək terrorçu, separatçıları silah və maliyyə ilə təmin edən Ruben Vardanyanı 2026-cı il ”Vatslav Havel İnsan Hüquqları Mükafatı”na namizəd kimi göstərmək kampaniyasına başlayıblar. Həmin bəyanatın mətni ilə yanaşı dünyada dəyərlərin nə qədər məhv edildiyini, ikili standartların vüsət aldığına da diqqət edin. Bir milyarder Rusiyadan Qarabağa gəlir, qanunsuz silahlı birləşmələrə yardımlar edir, onları silahlandırır və həmin silahlarla yüzlərlə, minlərlə azərbaycanlı öldürülür. Əvəzində Azərbaycan məhkəmələri ədaləti bərpa edir, onu və Azərbaycanın Qarabağ bölgəsini 30 ildən artıq işğalda saxlayan separatçı-terrorçu ünsürləri konkret cinayət əməllərinə görə həbs edir və aid olduqları yerə göndərir.

Bəyanatda isə deyilir ki, ”Biz, dünyanın hər yerindən olan aşağıda imza atan insan hüquqları müdafiəçiləri, erməni humanitar xadimi Ruben Vardanyanı 2026-cı il Vatslav Havel İnsan Hüquqları Mükafatına namizəd göstərdiyimizi elan edirik. Rubenin Aurora Humanitar Təşəbbüsü vasitəsilə dünyada insan hüquqlarının qorunmasına verdiyi əhəmiyyətli töhfəni, eləcə də Dağlıq Qarabağdakı (Artsax) həmvətənlərinin hüquqlarının müdafiəsinə verdiyi sadiqliyini qəbul edirik. Qətiyyətlə inanırıq ki, Ruben Vardanyan bu mükafata layiqdir”. Buna nə ad verəsən?

Adı çəkilən, yəni bəyanatı imzalayanları diqqətlə araşdırırsan, hamısı öz sahələrində 3 qəpiyə dəyməyən sıradan birləridir. Amma təqdimatlarında elə cümlələr yazıblar ki, sanki dünya bunlarsız heç nədir. Amma bilmək istəmirlər ki, haqqında ağızdolusu danışdıqları Ruben Vardanyan Avropa İssifaqının və ABŞ-ın sanksiyalarından yayınmaq üçün Rusiya vətəndaşlığından imtina edərək Ermənistana qaçdı. Bu qaçış da təsadüfi deyildi, planlaşdırılmışdı. Həm də Putin tərəfindən. Nikol Paşinyanın Kremlə başağrısı olacağı qənaətinə gələn Putin ən yaxın dostu, qara kassası, imkanları və əlaqələri ilə ona əlavə milyardlar qazandıran Vardanyanı Ermənistana bir emissar, potensial dövlət başçısı, bir sözlə, Paşinyana rəqib olaraq göndərdi. Amma Ermənistanda hakimiyyətə gəlməyin yeganə düsturunu xatırlayın Rubeni Qarabağa göndərdi ki, əvvəlcə orada hakimiyyəti ələ keçirsin, sonra isə oradan İrəvana yürüş etsin.

Əvvəlcə işlər rəvan getdi, qısa müddət ərzində Ruben Vardanyan ”hakimiyyət pilləsi”ndə maneəsiz addımladı. Pullarını sağa-sola səpələməyi unutmadı ki, hər kəsi onun nə qədər səxavətli olduğuna inandıra bilsin. Ermənilər pul axınının azaldığını hiss edən kimi ondan üz çevirdilər, arzular bir andaca suya düşdü. Sonra isə olanlar oldu. Yəqin ki, Ruben Vardanyanın namizədliyini irəli sürən ”elm adamları” bu faktları ya bilmir, ya da bilərəkdən dərinə getmirlər. Çünki, ”dana baltanın sapını çoxdan bulayıb”. Vəssalam...



# Türk dünyasında siyasi həmrəylik!

## Prezident İlham Əliyev: "Ailəmiz olan Türk dünyası XXI əsrin nüfuzlu geosiyasi güc mərkəzlərindən birinə çevrilməlidir"

“Bu gün Türk Dövlətləri Təşkilatının beynəlxalq çəkisi artır, qlobal proseslərdə rolu və mövqeyi güclənir”. Bu sözləri Prezident İlham Əliyev Qazaxıstanın Türküstan şəhərində keçirilən Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə çıxışı zamanı söyləyib. ”Keçən ilin oktyabr ayında Qəbələ Zirvə Görüşündə sədrliyi qəbul edən Azərbaycan təşkilat çərçivəsində əməkdaşlığın daha da dərinləşməsi istiqamətində fəaliyyət göstərir”, - deyə dövlətimizin başçısı vurğulayıb. Bildiyimiz kimi, 2025-ci il oktyabrın 7-də Qəbələdə keçirilmiş Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü, Türk dünyasının həmrəyliyini, strateji gücünü və gələcək inkişaf istiqamətlərini bir daha nümayiş etdirdi. Bu zirvə görüşü yalnız rəsmi bir toplantı olmaqla qalmadı, həm də Türk dünyasının siyasi, iqtisadi və mədəni inteqrasiyası üçün mühüm platforma rolunu oynadı. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı bu baxımdan xüsusi əhəmiyyət kəsb etdi. Dövlət başçısı yalnız Azərbaycanın mövqeyini deyil, bütövlükdə türk coğrafiyasının geosiyasi perspektivlərini də dəqiq və məqsədyönlü şəkildə ortaya qoydu. Qəbələ Zirvəsində müzakirə olunan mövzular - iqtisadi əməkdaşlıq, enerji təhlükəsizliyi, kommunikasiya və müdafiə sahəsində inteqrasiya - bu strateji prosesin təməlini möhkəmləndirir. Azərbaycan, təşəbbüskar rolu ilə, nəqliyyat-kommunikasiya dəhlizlərinin inkişafı, enerji resurslarının şaxələndirilməsi və humanitar əməkdaşlıq sahələrində bir çox layihələrin reallaşmasını təmin edir. Bu layihələr təkcə iqtisadi inteqrasiyanı deyil, həm də regional təhlükəsizlik, sabitlik və qarşılıqlı etimadın möhkəmlənməsini təmin edir. Azərbaycanın türk dünyasındakı liderlik rolu bir daha təsdiqləndi. Qəbələ Zirvə Görüşü, Türk dünyasının gələcək inkişaf xəritəsində Azərbaycan Prezidentinin baxışlarının strateji və məqsədyönlü olduğunu bir daha nümayiş etdirdi. Qəbələnin Zirvə görüşünə ev sahibliyi etməsi Azərbaycanın bölgələrində beynəlxalq siyasi tədbirlərin keçirilməsi ənənəsinin davamı kimi də diqqət çəkir. Son illərdə ölkəmizdə müxtəlif beynəlxalq forumların, sammitlərin və yüksəksəviyyəli siyasi platformaların təşkili Azərbaycanın regional diplomatiya mərkəzi kimi mövqeyini daha da gücləndirib. Bu, eyni zamanda, türk dövlətləri arasında həmrəyliyin və qarşılıqlı siyasi dəstəyin praktik müstəvidə daha da möhkəmləndiyini göstərir. ”Ailəmiz olan Türk dünyası XXI əsrin nüfuzlu geosiyasi güc mərkəzlərindən birinə çevrilməlidir”, - deyə Prezident vurğulayıb. .

### ”TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATININ DÖVLƏT BAŞÇILARININ İLK DƏFƏ 2024-CÜ İLDƏ ŞUŞADA KEÇİRİLMİŞ QEYRİ-RƏSMİ ZİRVƏ GÖRÜŞÜ TƏŞƏBBÜSÜ ARTIQ ƏNƏNƏYƏ ÇEVRİLİR”

Azərbaycan Prezidenti çıxışında Şuşada keçirilmiş qeyri-rəsmi Zirvə Görüşünə də diqqəti çəkib: ”Sevindirici haldır ki, Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının ilk dəfə 2024-cü ildə Şuşada keçirilmiş qeyri-rəsmi Zirvə Görüşü təşəbbüsü artıq ənənəyə çevrilir”. Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşləri formatının ilk dəfə Azərbaycanın təşəbbüsü ilə Şuşada keçirilməsi TDT daxilində yeni siyasi dialoq mexanizminin formalaşması baxımından mühüm mərhələ kimi qiymətləndirilir. 2024-cü ilin iyulunda Qarabağda təşkil olunmuş ilk qeyri-rəsmi Zirvə görüşü Türk dünyasında siyasi həmrəyliyin və strateji koordinasiyanın gücləndiyini nümayiş etdirmişdi. Qarabağ Bəyannaməsinin qəbul edilməsi isə təşkilat daxilində ortaq siyasi baxışın formalaşması istiqamətində mühüm addım hesab olunurdu. Bu sənəddə TDT daxilində iqtisadi inteqrasiyanın dərinləşdirilməsi, birgə infrastruktur və investisiya layihələrinin dəstəklənməsi, enerji, rəqəmsallaşma və iqlim siyasəti sahələrində əməkdaşlıq, Türk dünyasının mədəni və humanitar birliyinin gücləndirilməsi, üzv dövlətlərin ərazi bütövlüyünə və suverenliyinə dəstək verilməsi kimi məsələlərdə TDT-nin regional təşkilat kimi beynəlxalq roluna təsirini göstərir. Şuşa Zirvə görüşü əhəmiyyətli tarixi hadisəyə və türk inteqrasiyasının yeni mərhələsinin rəmzinə çevrildi.

### ”TÜRK DÜNYASI HƏFTƏSİ İYUN AYINDA BAKIDA KEÇİRİLƏCƏK”

Mayın 15-də Qazaxıstanın və bütün türk sivilizasiyasının ən qədim şəhərlərindən biri olan Türküstanda Türk Dövlətləri Təşkilatı (TDT) Dövlət Başçıları Şurasının qeyri-rəsmi Zirvə görüşü Türk dünyasının möhkəmlənməsində yeni bir mərhələnin rəmzidir. TDT-nin qeyri-rəsmi Zirvə görüşləri türk dövlətləri arasında siyasi etimadın, strateji koordinasiyanın və ortaq gündəliyin hazırlanmasının gücləndirilməsi nöqteyi-nəzərindən təsirli bir mexanizm olduğunu artıq sübut edib. Məhz bu kontekstdə Türküstanda keçirilən Zirvə görüşü Türk dünyasının birliyinin, qarşılıqlı əlaqəsinin və ortaq gələcəyinin gücləndirilməsinə yönəlmiş kursun davamı kimi müstəsna əhəmiyyətə malikdir. ”Türk xalqlarının elmi-mədəni birliyinə böyük töhfə vermiş Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr edilən Türk dünyası həftəsi iyun ayında Bakıda keçiriləcək. Əminəm ki, bu tədbir xalqlarımızın mədəni həyatında əlamətdar hadisəyə çevriləcək”, - deyə Prezident bildirib. Birinci Türkoloji Qurultay ortaq zəngin keçmişə və qədim irsə malik türk xalqlarının mədəni inteqrasiyasında mərhələ yaratmış müstəsna əhəmiyyətli hadisələrdəndir. Beynəlxalq miqyaslı bu unikal elmi forumda türkologiyanın ən aktual məsələləri geniş və sistemli müzakirə obyektinə çevrilmiş, türk dünyasının dili, tarixi, etnoqrafiyası, ədəbiyyatı və mədəniyyətinin gələcəyi ilə bağlı vacib qərarlar qəbul edilmiş, latın qrafikası əsasında vahid ümumtürk əlifbasına keçilməsi xüsusi diqqət mərkəzində saxlanılmışdır.Bakı şəhəri XX əsrin əvvəllərindən intellektual həyatın yüksək səviyyəsi ilə seçildiyi və dünya türkologiyasının nüfuzlu mərkəzlərindən biri kimi tanındığı üçün Birinci Türkoloji Qurultaya ev sahibliyi etmişdir. Türk dünyasının yenidən vahid ailə şəklində formalaşması istiqamətində diqqətəlayiq nailiyyətlər qazanılmışdır. Türk ölkələri arasında qardaşlıq ruhu ilə müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsi və qarşılıqlı mədəni əməkdaşlıq əlaqələrinin dərinləşdirilməsinə doğru qətiyyətlə atılan addımlar artıq davamlı xarakter daşımaqdadır.

### ”ÖLKƏMİZDƏ SABİT GENİŞZOLAQLI İNTERNETİN ƏHATƏSİ 100 FAİZƏ ÇATDIRILMIŞDIR”

Dövlət başçımız çıxışlnda Azərbaycanın rəqəmsal suverenliyinin möhkəmləndirilməsi və innovasiya əsaslı iqtisadi modelə keçidin sürətləndirilməsinə də diqqəti yönəldərək, bunun əsas vəzifələrimizdən biri olduğunu bildirib: ”Bu məqsədlə Rəqəmsal İnkişaf Şurası, Milli Süni İntellekt Mərkəzi və Süni İntellekt Akademiyası yaradılmışdır. Ötən il ölkəmizdə Süni İntellekt Strategiyası qəbul edilmişdir. Strategiyanın əsas məqsədləri sırasında süni intellekt sənayesinin inkişafı, ixtisaslı kadrların hazırlanması və süni intellektin dövlət idarəçiliyində geniş tətbiqi yer alır. Ölkəmizdə sabit genişzolaqlı internetin əhatəsi 100 faizə çatdırılmışdır. Bütün dövlət xidmətlərinin vahid rəqəmsal platforma üzərindən həyata keçirilməsi istiqamətində işlər davam edir.Bununla yanaşı, süni intellektdən məsuliyyətli istifadənin təmin edilməsi, onun qanunazidd məqsədlər üçün istifadəsinin qarşısının alınması istiqamətində tədbirlər həyata keçirilir”. Qeyd edək ki, rəqəmsal inkişaf sahəsində türk dövlətləri ilə əməkdaşlıq uğurla davam edir. Belə ki, Avropa ilə Asiya arasında ”Rəqəmsal İpək Yolu” layihəsi icra olunur. Layihənin tərkib hissəsi olan, Azərbaycan ilə Qazaxıstan arasında Trans-Xəzər Fiber-Optik Kabel xəttinin yaxın aylarda istifadəyə verilməsi planlaşdırılır. ”Türk dövlətləri ilə nəqliyyat sahəsində əməkdaşlığımız genişlənir. Cari qlobal geosiyasi şəraitdə Orta Dəhlizin əhəmiyyəti daha da artır. Reallaşmaqda olan Zəngəzur dəhlizi Orta Dəhlizin əsas seqmentlərindən birinə çevriləcək. Orta Dəhliz boyunca gömrük prosedurları sadələşdirilir. Türk Dövlətləri Təşkilatı çərçivəsində hazırlanmış ”e-Permit” sistemi elektron icazələrin operativ şəkildə verilməsini təmin edir”, - deyə Prezident bildirib.

### ZİRVƏ GÖRÜŞÜNÜN TÜRKÜSTAN BƏYANNAMƏSİ

Onu da bildirək ki, sonda dövlətimizin başçısı və digər prezidentlər Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşünün Türküstan Bəyannaməsini və Türk Dövlətləri Təşkilatının Baş katibinin müavininin təyin olunması haqqında qərarı imzalayıblar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak edən digər prezidentlər mayın 15-də Türk Sivilizasiyası Mərkəzinin onlayn təməlqoyma mərasimində iştirak ediblər. Layihə türk xalqlarının zəngin tarixi, mədəni və mənəvi irsinin qorunub saxlanmasına, öyrənilməsinə və təbliğinə yönəlib. Ən qabaqcıl standartlara uyğun inşa ediləcək mərkəzin əsas ideyası türk sivilizasiyasının dünya tarixində özünəməxsus yeri, dərin fəlsəfəsi və dövlətçilik ənənələri olan böyük sivilizasiya olduğunu nümayiş etməkdir.

Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşünün ”Süni intellekt və rəqəmsal inkişaf” mövzusunda keçirilməsi gələcəyə istiqamət vermək baxımından böyük önəm daşıyır. Türk dövlərləri arasında ortaq texnologiya layihələrinin inkişaf etdirilməsi mühüm məsələlər sırasındadır. Builki Zirvə görüşünün ”Süni intellekt və rəqəmsal inkişaf” mövzusu Türk Dövlətləri Təşkilatının hazırkı inkişaf mərhələsinin fərqli bir xüsusiyyətidir. Bu, əsasən, siyasi və mədəni inteqrasiyadan texnoloji və innovativ qarşılıqlı əlaqəyə keçiddir. Mövzu XXI əsrdə dövlətlərin rəqabət qabiliyyətinin yalnız resurslar və coğrafiya müstəvisində deyil, həm də texnoloji inqilaba uyğunlaşma qabiliyyəti ilə müəyyən edildiyi anlayışı əks etdirir. Vahid, ümumtürk Süni İntellekt İnstitutunun yaradılması ideyası xüsusi aktuallıq kəsb edir. Ortaq Süni İntellekt İnstitutunun yaradılması Türk dünyasında əməkdaşlığı keyfiyyətcə yeni səviyyəyə qaldıra, Türk Dövlətləri Təşkilatını təkcə siyasi və iqtisadi birliyə deyil, həm də Avrasiyanın intellektual və texnoloji mərkəzlərindən birinə çevirə bilər.

*Nəzakət ƏLƏDDİNQIZI*

# AİLƏ: səadətin ünvanı



***Y**eni qurulan ailə ilk bahara bənzəyir. Torpaq altından yavaş-yavaş pöhrə verən və gələcəyin barı-bərəkəti olacaq taxıl zəmilərinə, fidanları yenicə əkilən, lakin qarşıda dünyaya ətir saçacaq gül plantasiyalarına bənzəyir. Ailənin ilk baharında iki gənc ev qurmağa, qoca nənələrimiz demişkən, yurd-yuva sahibi olmağa can atır. Ata-analar gənc ailənin qayğıları ilə yaşayır, onların da ev-eşik sahibi olmaları üçün çalışırlar.*

Bir azdan baharın ən gözəl çağı - min bir rəngli çiçəklərin təbiətə səpildiyi, hər yerə ətrini saçdığı dövrü başlayır ailənin. Dünyaya körpə gəlir. Dünənədək iki gəncin sevgisiylə dolan mənzilə yeni nəfəs qatılır. Ev-eşik, divarlar körpə qoxusu verir. Bu qoxu iki gənci valideyn edir, çiyinlərinə böyük bir məsuliyyət qoyur. Övladlarını alırlar qucaqlarına. Dünyanın ən gözəl sevgisi olan övlad sevgisi nə qucağa sığır, nə mənzillərin otaqlarına... Bu sevgi bir ovuc boyda olan, lakin nələr-nələr sığdıra bildiyimiz ürəyimizə sığır. Ata-ana olur insan. Elə bu zaman da ata-ana qədrini bilməyə başlayırıq. Yuxusuz gecələr, qayğılı gündüzlər anamızı andırır bizə. ”Bir ailəm var, məsuliyyəti tam mənim üzərimdədir” hissi atamızı xatırladır bizə. Sanki baba-nənələrimizin ”ata-ana olmayan bilməz valideyn qədrini” deyimini də məhz bu zaman dərk edirik...

Oğul, qız - fərqi yoxdur, doldurur evimizi sevinclə, xoşbəxtliklə... Qayğılı günlər başlayır ailədə. Nə qədər gözəl günlərdir bu qayğılı günlər. İnsanın həyatını maraqlı edən, ömrünü mənalandıran günlərdir övlad qayğısı çəkmək. Onun böyüməsini izləmək - balam bu gün bir addım atdı, bir kəlmə söz söylədi, bir şeir dedi, birinci sinfə getdi, əla qiymət aldı, idmanda uğur qazandı, olimpiada qalibi oldu, universitetə daxil oldu, əsgər getdi, ailə qurdu kimi sevinclərini yaşamaqla bərabər, xəstələnəndə qayğısını çəkmək, niyə yemədi, niyə yaxşı oxumadı, niyə yoldaşlarından geri qaldı, - deyə narahatlıq keçirmək də gözəldir. Axı bu, bir ailədə yaşananlardır. Yaxşılar da, yaxşı olmayanlar da bizimdir. Yaxşını lap yaxşı, yaxşı olmayanı yaxşı səviyyəsinə gətirməkdir valideynlik vəzifəsi, məsuliyyəti.

Ailəyə cəmiyyətin kiçik bir parçası deyirik. Bu kiçik qurumda özünü tapanlar cəmiyyətdə də özünü təsdiq edə bilir. Bu, ailə adlı ömrün yay fəslinə bənzəyir. Necə ki, yayın sonuna doğru təbiət bütün barını qoyur ortaya, ailənin də ”yay mövsümündə” onun cəmiyyət üçün verdiklərinin ”keyfiyyəti” çıxır meydana.

Xalqımızın çoxəsrlik milli-mənəvi dəyərlərini əks etdirən, özünəməxsus ənənələri ilə nümunə olan ailələrimiz. Bir evin dörd divarı arasında, bir süfrənin başında dostluğu, yoldaşlığı, birliyi, vətənpərvərliyi, etibarı, qənaəti, paylaşmağı aşılayan ailələrimiz. Böyük-kiçik yeri bilməyi, harada oturub-durmağı, harada necə danışmağı öyrədən ailələrimiz. Ömrün qış fəsli saçları bəyazlaşdırdıqca bir ömür yolyoldaşı olanların bir-birinə sevgisi, sayğısı daha da artır. Çünki bu yolçuluqdakı maneələri, keşməkeşləri aşmaq, nahamarlıqları qət etmək, payız küləklərinə sinə gərmək əzmi insanları bir-birinə dost edir, ayrılmaz dost... Onları gənc ailələrin nəsihət verəninə, məsləhətçisinə çevirir. Baba-nənə edir. Övladdan da şirin paylı - nəvəli, nəticəli, kötücəli edir. Və bir ömürlük yolyoldaşlarının çatdığı son mənzil neçə-neçə nəsillər sonra da xatirələrdə gözəl bir ailənin ünvanını yaşadır.

Lakin bəzən ömrünün payız fəslini keçib qışa - sona çatmayan ailələrimiz də olur. Dörd fəsli başa vura bilməyən ailələr yarımçıq ömürlü ailələrdir. Təbiətin fəsillərinin ardıcıllığı öz ”əlindədirsə”, ailənin ”dörd fəslini” sıralamaq biz insanların əlindədir. Bütün çətinlikləri aşa biləcək, əzmkar, mübariz insanlarda. Elə isə bir ailənin belə dağılmasına izn verməyək. Qoruyaq, nəyin bahasına olursa-olsun, qoruyaq. Övladlarımızı atasız, anasız qoymayaq. Üzlərindəki sevincin, təbəssümün, gülüşün yerinə öz əllərimizlə kədər, göz yaşı toxumları səpməyək. Çünki zaman bu toxumları cücərtdikcə belə uşaqlar həyatın sərt silləri ilə qarşılaşmalı olurlar. Tək uşaqlarmı? Xeyr, həm də təklənən qadınlar, kişilər. Bir də yarımçıq ömürlü ailələri özlərinin kədərinə çevirən böyüklərimiz... Elə buradaca böyük şəxsiyyətlərdən birinin gözəl kəlamını xatırlamaq yerinə düşər: - Bütün dünyanı gəzib səadət axtardım, tapmayıb kor-peşman evə döndüm. Sən demə o, evdə məni gözləyirmiş. Bu ev isə yalnız bir ömürdə bir-birinin yolyoldaşına çevrilənlərin ünvanı ola bilər. Səadət dolu ünvan...

***Mətanət Məmmədova***



## “Qlobal şəhər gündəliyinin gələcək konturları Azərbaycanda formalaşdırılır”

Qlobal şəhər gündəliyinin gələcək konturları Azərbaycanda formalaşdırılır.SİA xəbər verir ki, bu barədə Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev özünün ”X” sosial media hesabında yazıb.O, Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) ilə bağlı paylaşdığı videonun üzərində yazıb:”İqlim dəyişikliklərinin təsirləri və havanın şıltaqlıqlarına baxmayaraq, WUF13 genişmiqyaslı mətbuat konfransı ilə start götürür. Qlobal şəhər gündəliyinin gələcək konturları Azərbaycanda formalaşdırılır. 40.000-dən çox iştirakçı ilə indiyədək keçirilmiş ən böyük WUF”.

# Moskvanın Cənubi Qafqaz arzusu - HƏDƏF NƏDİR?

“Biz regionda silahlı münaqişələrə davamlı olaraq qarşı çıxırıq və blokadaların qaldırılmasını dəstəkləyirik. Rusiya Qafqaz dövlətidir və regiondakı inkişaflarla sıx bağlıdır, ona görə də Cənubi Qafqaz onun üçün həyati əhəmiyyət kəsb edir”. Bu fikirləri müsahibəsində Rusiya Xarici İşlər Nazirliyinin MDB ölkələri üzrə Dördüncü Departamentinin direktoru Mixail Kalugin deyib. Əlavə edib ki, bizim maraqlarımız Rusiyanın sadəcə qonşu deyil, həm də özü Qafqaz gücü olması faktından irəli gəlir. Bölgədəki bütün dövlətlərlə sıx tarixi və mədəni əlaqələrimiz var. Beş respublikadan dördü ilə müttəfiqlik münasibətləri qurmuşuq. Rusiya Cənubi Qafqaz ölkələrinin hər biri üçün əsas və ya əsas ticarət tərəfdaşlarından biridir. Regiondan mühüm nəqliyyat yolları keçir. Şimali Qafqazdakı vəziyyət əsasən dağ silsiləsinin o biri tərəfində proseslərin necə inkişaf etməsindən asılıdır. ”Bir sözlə, Cənubi Qafqaz bizim üçün həyati əhəmiyyət kəsb edir”, - deyə diplomat bildirib.

Onun sözlərinə görə, Rusiyanın əsas marağı ”regionu inkişaf etdirmək, onun iqtisadi potensialını açmaq və orada ”sabitlik və sülh kəməri” yaratmaqdır”. ”Regionun çiçəklənməsinə töhfə verən şey Rusiyanın rifahına da töhfə verir. Bu, hərəkətlərimizin sadə məntiqidir”, - deyə Kaluqin vurğulayıb. ”Bu məntiqə uyğun olaraq, biz regionda silahlı münaqişələrə davamlı olaraq qarşı çıxırıq, blokadaların qaldırılmasını dəstəkləyirik və hər bir ölkənin coğrafi mövqeyindən yararlana bilməsi üçün regional əlaqənin ortaq arxitekturasını qurmaq üçün səylə çalışırıq. Biz istəyirik ki, Cənubi Qafqaz iqtisadiyyatı sərbəst nəfəs alsın. Bu, bizim üçün faydalıdır”, deyə XİN təmsilçisi bildirib. Xarici İşlər Nazirliyinin departament direktoru: ”Məhz buna görə də 2020-ci ildə Rusiya Prezidenti Vladimir Putin Azərbaycan və Ermənistan arasında qan tökülməsinin dayandırılması üçün şəxsi səylər göstərdi. O zaman Bakı ilə İrəvan arasında sülh prosesinin təməli də qoyuldu. Proses artıq bir neçə mərhələdən keçib, lakin hələ də Rusiya, Azərbaycan və Ermənistan liderləri arasında 2020-2022-ci illərdə əldə edilmiş razılaşmalar əsasında hazırlanmış yol xəritəsinə uyğun olaraq davam edir”, - deyə bildirib.




### Rusiya XİN ”Tramp Yolu” layihəsi barədə

”ABŞ və İran arasındakı münaqişə nəzərə alınmaqla, ”Beynəlxalq Sülh və Rifah üçün Tramp Yolu” layihəsinin başlanması perspektivləri qaranlıqdır”. Rusiya Xarici İşlər Nazirliyinin MDB Ölkələri üzrə Dördüncü Departamentinin direktoru Mixail Kalugin bunu TASS-a verdiyi müsahibədə bildirib. ”Bir sıra ekspertlər hesab edirlər ki, İran-Amerika münaqişəsi nəzərə alınmaqla, ”Tramp Yolu”nun başlanması perspektivləri qaranlıqdır. Qeyd olunur ki, İranın ABŞ-ın şimal sərhədlərindəki mövcudluğuna mənfi münasibətindən əlavə, ”Tramp Yolu”nun da bir hissəsi olması nəzərdə tutulan Orta Asiyadan Avropaya gedən marşrut üzərində Amerikanın nəzarəti Asiya tərəfdaşları arasında inamsızlıq yarada bilər. Çin və Rusiya yükləri olmadan layihəyə qoyulan investisiyanı geri qaytarmaq olduqca çətin olacaq”, - deyə o qeyd edib.

Kaluqinin sözlərinə görə, bu məsələdə nəzərə alınmalı olan bəzi obyektiv amillər də var. ”Bunlara Ermənistan-İran sərhədində Rusiya sərhədçilərinin olması, Azərbaycan sərhədi ilə fasiləsiz əlaqə üçün Rusiya standartlarına uyğun dəmir yolu xəttinin çəkilməsi zərurəti, 2038-ci ilə qədər qüvvədə olan Cənubi Qafqaz Dəmir Yolları QSC-nin Ermənistan dəmir yolu şəbəkəsini idarə etmək üçün güzəştə getməsi və Ermənistanın Avrasiya İqtisadi Birliyinin (AAİB) vahid gömrük məkanına daxil edilməsi daxildir”, - deyə diplomat davam edib.

TASS-a verdiyi müsahibədə diplomatdan Rusiya Baş nazirinin müavini Aleksey Overçukun Ermənistanın Rusiyanın ölkə ilə münasibətlərini yenidən qurmalı olacağı nöqtəyə çox yaxınlaşdığı barədə açıqlamasına münasibət bildirməsi istənilib. ”Baş nazirin müavini Aleksey Overçukun qeyd etdiyiniz açıqlaması, müxtəlif səviyyələrdə Ermənistan rəhbərliyinə və ictimaiyyətinə çatdırdığımız və çatdırmağa davam etdiyimiz siqnalların nümunəsidir”, - Kalugin deyib. Onun sözlərinə görə, hər iki ölkənin vətəndaşları ”İrəvanın sözdə Avropa yolu ilə irəliləməsinin müəyyən bir məqamda Rusiya-Ermənistan münasibətlərində sistemli dəyişikliklərə səbəb ola biləcəyini” bilməlidirlər. Moskvanın fikrincə, Aİ Ermənistana təhlükəsizlik, iqtisadi sabitlik və rifah məsələlərində ”ardıcıl alternativ” təklif etmir. O, Brüsselin maraqlarının ”Ermənistan və ya Cənubi Qafqaz ölkələri ilə bağlı narahatlıq”da deyil, öz geosiyasi çətinliklərinin həllində kök saldığını iddia edir.

### Ermənistan-Aİ: əsas məqamlar

26 mart 2025-ci ildə Ermənistan parlamenti ölkənin Avropa İttifaqına daxil olması haqqında qanunu təsdiqləyib. Sənəd prezident tərəfindən 4 apreldə imzalanıb. 2 dekabr 2025-ci ildə Brüsseldə tərəflər Ermənistan-Aİ tərəfdaşlığı üçün strateji gündəliyi təsdiqləyiblər. İrəvan bildirib ki, bu gündəm ölkənin suverenliyini, ərazi bütövlüyünü, demokratik islahatları və iqtisadi dayanıqlığı dəstəkləməyə yönəlib. Baş nazir Nikol Paşinyan vurğulayıb ki, Ermənistan AİB-dəki üzvlüyünü qoruyub saxlayarkən Aİ standartlarına doğru irəliləyir. O bildirib ki, hər iki yanaşmanın birləşdirilməsi mümkün olmazsa, növbəti seçim ölkə vətəndaşları ilə birlikdə ediləcək.

***V.VƏLİLİ***

# Ebola təhlükəsi: dünya yeni xəstəliyin astanasındadır?

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) Konqo Demokratik Respublikası və Uqandada Ebola epidemiyasının beynəlxalq narahatlıq doğuran fövqəladə hal olduğunu bildirir. Bu haqda ÜST bazar günü Bundibugyo virusunun epidemiyası ilə əlaqəli baş verən 88 ölüm və 300-dən çox şübhəli haldan sonra bəyanat verib. ÜST-ün baş direktoru Dr. Tedros Adhanom Ghebreyesus təşkilatda rəsmi fövqəladə komitə çağırmazdan əvvəl qərarı açıqlayıb. Bundibugyo virusu Ebola virusu xəstəliyinə səbəb ola biləcək üç ştammdan biridir və ən az rast gəlinən virusdur. Bu ştamm üçün təsdiqlənmiş peyvəndlər və ya müalicə üsulları, yaxud spesifik testlər yoxdur. Ebola qan və qusma kimi bədən mayeləri vasitəsilə yayılan yüksək yoluxucu bir xəstəlikdir. Xüsusilə də yüksək gəlirli ölkələrin reanimasiya şöbələrində mövcud olan şəraiti təmin edə bilməyən aztəminatlı mühitlərdə ölüm nisbəti yüksəkdir. Afrika Xəstəliklərə Nəzarət və Profilaktika Mərkəzləri (Africa CDC) cümə günü epidemiyanın yayıldığını açıqladı, lakin nə vaxt başladığı hələ məlum olmadığını bildirdi. Afrika CDC-nin baş direktoru Dr. Jean Kaseya Sky News-a bildirib: "Hazırda insanlar öldüyü üçün panik rejimindəyəm. Dərmanlarımız yoxdur, peyvəndimiz yoxdur."



O, epidemiyanın qitədə peyvənd və dərman istehsalı gücünə ehtiyac olduğunu bildirib: "Qərb ölkələri başa düşmürlər ki, Afrika bu virusa yoluxsa, onlar da risk altındadırlar, çünki insanlar hər gün bir ölkədən digərinə uçurlar."

Kaseya bu həftə Cenevrədə illik görüşlər üçün Ümumdünya Səhiyyə Assambleyasında olmalı idi, lakin fövqaladə vəziyyət üçün sabah Afrikaya qayıdacağını söyləyib. O, rəsmilərin potensial testləri, peyvəndləri və müalicələri erkən mərhələdə olan şirkətlərlə danışıqlar apardıqlarını, epidemiya zamanı təhlükəsiz şəkildə istifadə edilə biləcəyini və ya sınaqdan keçirilə biləcəyini görmək üçün bəzi dərman vasitələrinin növbəti həftələrdə mövcud olacağına ümid etdiyini bildirib.

Kaseya əvvəlki mətbuat brifinqində əlcək və əl yuma kimi əsas infeksiya nəzarət tədbirlərinin vacibliyini vurğulasa da, rəsmilər bu tibbi vasitələrin risk olan bölgələrə məhdud təchizatının ola biləcəyini bildiriblər.

Konqo Demokratik Respublikasının (KDR) ölkənin şərqində, Uqanda və Cənubi Sudanla həmsərhəd olan və paytaxtdan təxminən beş günlük məsafədə yerləşən İturi əyalətində 80 şübhəli ölüm, səkkiz laboratoriya təsdiqli hal və 246 şübhəli hal qeydə alınıb. Uqandanın paytaxtı Kampalada da iki hal, o cümlədən biri ölüm halı qeydə alınıb ki, bunlar da KDR-dən gələn insanlar arasında aşkarlanıb. KDR-in paytaxtı Kinşasada şübhəli hal əvvəllər bildirilmişdi, lakin ÜST daha sonra həmin şəxsin təsdiqləyici testdə Bundibugyo virusuna qarşı mənfi nəticə verdiyini bildirib. ÜST bildirib ki, hazırda yoluxmuş insanların həqiqi sayı və bu hadisə ilə əlaqəli coğrafi yayılma ilə bağlı qeyri-müəyyənliklər var.

Lakin, qeyd olunur ki, əlamətlər hamısı hazırda aşkarlanan və bildirilən daha böyük bir epidemiyanın baş verməsinə işarə edir və yerli və regional yayılma riski daşıyır. ABŞ Xəstəliklərə Nəzarət və Profilaktika Mərkəzləri (CDC) bazar günü epidemiyanın birbaşa təsir etdiyi az sayda amerikalıların təhlükəsiz şəkildə geri qayıtmasını dəstəklədiyini bildirib. CDC rəsmiləri jurnalistlərə bildiriblər ki, təcili yardım mərkəzi aktivləşdirib və Konqo Demokratik Respublikası və Uqandadakı ofislərə daha çox insan göndərməyi planlaşdırırlar.

ÜST vurğulayıb ki, Konqo Demokratik Respublikasında çoxsaylı epidemiyanın baş verməsinə səbəb olan Zair Ebola növündən fərqli olaraq, hazırda təsdiqlənmiş Bundibugyo virusuna xas terapevtik müalicə vasitəsi və ya peyvənd yoxdur. Buna görə də bu hadisə fövqəladə hesab olunur. ÜST bildirib ki, İturi bölgəsində münaqişə davam edir və çoxlu insan şəhər və ya şəhərətrafı ərazilərdə hərəkət edir və yaxın məhəllələrdə yaşayır, bu da yayılmanı daha çox ehtimal edə biləcək amillərdir. Associated Press-in jurnalistləri İturinin paytaxtı Bunia şəhərində qeyri-adi dərəcədə çox sayda dəfn hadisəsinin baş verdiyini və qorxduqlarını deyən yerli sakinlərdən müsahibə götürüblər. "Hər gün insanlar ölür və bu, təxminən bir həftədir ki, davam edir. Bir gündə iki, üç və ya daha çox insanı dəfn edirik. Hazırda bunun hansı xəstəlik olduğunu həqiqətən bilmirik", - Bunia sakini Jan Mark Asimve deyib.

ÜST bildirib ki, epidemiyanın pandemiya fövqəladə vəziyyəti meyarlarına cavab verməməsi, lakin beynəlxalq səviyyədə ictimai səhiyyə fövqəladə vəziyyətinin elan edilməsinin risk altında olan bölgəyə dəstəyi və resursları stimullaşdırmaq üçün nəzərdə tutulduğunu bildirib. Konqo Demokratik Respublikası rəsmilərinin verdiyi açıqlamada bildirilir ki, onların bildiyi ilk yoluxma halı 24 apreldə bir tibb bacısında qeydə alınıb. Yeni Zelandiyanın keçmiş baş naziri və Pandemiyaya Hazırlıq və Müdaxilə üzrə Müstəqil Panelin həmsədri Helen Klark isə deyib: "Baş direktoru bu təhlükəni elan etməkdə təcili hərəkət etdiyinə görə təqdir edirik. Onun rəsmi fövqəladə hallar komitəsinin çağırması vəziyyətin ciddiliyini və təcili qlobal səfərbərliyə ehtiyacı əks etdirir."

Qeyd edək ki, Ebola, Ebola virus xəstəliyinə (EVX) səbəb olan nadir, lakin son dərəcə təhlükəli və əksər hallarda ölümlə nəticələnən kəskin viruslu infeksiyadır. Bu xəstəlik güclü qızdırma və daxili-xarici qanaxmalarla xarakterizə olunur. İlkin əlamətləri qəfil başlayan yüksək hərarət, şiddətli baş və əzələ ağrıları, halsızlıqdır. Növbəti mərhələlərdə ürəkbulanma, qusma, ishal, qarın ağrısı olur. Daha sonra dəri altında, daxili orqanlarda və bədən dəliklərindən (burun, ağız, gözlər) şiddətli qanaxmalar meydana gəlir.

Xəstəlik, xəstə və ya ölən şəxsin qan, tüpürcək, tər, sidik və digər bədən mayeləri ilə birbaşa təmas nəticəsində yayılır. Əsasən Afrika meşələrində yaşayan yoluxmuş heyvanların (meymunlar, yarasalar) əti və ya onlarla təmas vasitəsilə insanlara keçir. Ümumdünya Səhiyyə Təşkilatının rəsmi məlumatlarına əsasən, xəstəliyin müxtəlif ştammlarına yoluxma halları 50%-dən 90%-ə qədər ölüm faizinə malik ola bilər.

**Lalə Mehralı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "insan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# Xaricdəki ünsürlərin həbsləri üçün tədbirlər görülür

Azərbaycan bütün sahələr üzrə inkişaf edir və güclənir. Bu isə ölkəmizin dünya miqyasında nüfuzunun artmasına, mövqelərinin möhkəmlənməsinə geniş imkanlar yaradır. Xüsusilə də siyasi, ictimai sabitlik Azərbaycanın ən böyük sərvəti hesab olunur. Ətraf ölkələrdə, eləcə də müxtəlif xarici bölgələrdə amansız müharibələr, münaqişələr baş verdiyi halda, Azərbaycan sabitlik adası olaraq tanınır. Dost ölkələr Azərbaycanın bu vəziyyətinə sevinsələr də, qısqanc və düşmənçilik hissi ilə yanaşan qüvvələr də var. Məhz ikincilər Azərbaycanın uğurlarına, qələbələrinə kölgə salmaq üçün iyrənc vasitələrdən, üsullardan istifadə edirlər. Daha çox da onlar sapı özümüzdən olan baltalardan yararlanmağa çalışırlar. Yəni, müxtəlif törətdikləri müxtəlif cinayətlərin cəzasından yayınmaq üçün Avropaya və ABŞ-a qaçan bəzi antimilli ünsürləri təxribat maşınlarının siyahısına cəlb edir, onlardan alət olaraq istifadə edirlər. Təxribatçı qrup üzvləri müxtəlif ölkələrdən Azərbaycana qarşı eşşək kimi anqırıb, it kimi ulamağa çalışsalar da, ümumi koordinasiya işi Fransadan, bəzi hallarda isə Almaniyadan həyata keçirilir. Fransa o dövlətdir ki, 44 günlük Vətən müharibəsində və parlaq hərbi qələbədən sonra ölkənin senatı ermeniləri himayə edən, Ermənistana dəstək göstərən irticaçı qərarlar qəbul etdi, Makron hər fürsətdə ölkəmizlə bağlı qərəzli açıqlamalarla çıxış edib. Almaniyada eynilə ermənipərəst mövqe sərgiləyib. Almaniyada faşist ideologiyasının əsas təmsilçilərindən olan Frank Şvabenin təklifi əsasında Azərbaycanın AŞPA-da səsvermə hüququnun məhdudlaşdırılması ilə bağlı qətnamə qəbul edildi. 30 il AŞPA Ermənistanın Azərbaycana qarşı təcavüzü və ərazilərin işğalı faktına qarşı heç bir tədbir görməyib, yalnız ara-sıra hüquqi çəkisi olmayan bəyanatlar və qərarlar verməklə kifayətlənib. Halbuki, bir quruma üzv olan iki ölkədən birinin digərinin ərazisini işğal etməsi faktına görə ən azından işğalçının səs hüququ əlindən alına bilərdi. Bu baş vermədi, sonrakı mərhələdə Azərbaycan işğal altındakı torpaqlarını azad etdiyi zaman baş-başa verib, erməni faciəsinə ağlaşma qurdular. Azərbaycanı hədəf seçməklə erməni himayədarı olduqlarını nümayiş etdirdilər. Bu günlər, yəni aprelin 30-da Avropa Parlamenti Azərbaycana qarşı daha bir separatçı qətnamə qəbul etdi.



## Sapı özümüzdən olan baltalar da erməni dəyirmanına su tökürlər

Diqqətçəkən məqam ondan ibarətdir ki, sapı özümüzdən olub, maddi və mənəvi dəstəyi xarici maraqlı dairələrdən alan bir qrup dağıdıcı müxalif ünsür AŞPA, Avropa Parlamenti kimi rüşvətə və korrupsiya girdabında əzilən qurumların Azərbaycanla bağlı qəbul etdikləri separatçı qətnamələrə haqq qazandırırlar. Milli Şura, AXCP, Müsavat liderləri və xaricdəki antimilli ünsürlər davamlı şəkildə doğulub boyabaşa çatdıqları, suyunu içib, çörəyini yedikləri Azərbaycanı aşağılamağa, atributlarını təhqir etməyə çalışırlar. Hansı ki, İsa Qəmbər, Cəmil Həsənli, Arif Hacılı və digərləri açıq şəkildə Azərbaycan qanunverciyini pozmaq siyasəti aparırlar. Düzdür, onların sırasında olub, qatı cinayət əməli törədən AXCP sədri Əli Kərimli və onun müşaviri Məmməd Rahim həbs olunublar. Əli Kərimli və Məmməd İbrahim Cinayət Məcəlləsinin 278.1 (hakimiyyəti zorla ələ keçirməyə, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirməyə yönələn hərəkətlər) maddəsi ilə təqsirləndirilirlər. Təbii ki, törədilən cinayətlər cəzasız qala bilməz. Həm də Azərbaycan hüquqi, azad dövlətdir. Kimsənin statsusuna, cəmiyyətdə tutduğu mövqeyinə görə, cinayətdən azad edilməsi mümkünsüzdür. Belə hal baş versə, sensasiya olaraq qiymətləndirilər və ölkəmizin imicinə xələl gətirər. Yalnız məhkəmə istisna hallarda qərarını elan edərkən məhkəməsi keçirilən şəxsə qarşı qismən humanist davranış nümayiş etdirə bilər.

## Xaricdəki antimilli ünsürlər cəzadan qaça bilməyəcəklər

İstintaq araşdırmalarına görə, cinayət əməllərində iştiraklarına görə Abbas Abbasov, Əli Kərimli, Fuad Qəhrəmanlı, Məmməd İbrahim və Qənimət Zayıdov Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 278.1 (hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud zorla saxlanılmasına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər), Eldar Əmirov 32.5, 278.1 (hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud zorla saxlanılmasına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlərə kömək etmə), Ramiz Mehdiyev 193-1.3.2 (cinayət yolu ilə əldə edilmiş xeyli miqdarda əmlakı leqallaşdırma), 274 (dövlətə xəyanət) və 278.1-ci maddələri ilə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb edilib.Abbas Abbasov, Fuad Qəhrəmanlı və Qənimət Zayıdov Azərbaycan Respublikası ərazisindən kənarda olduqları və istintaqdan gizləndikləri üçün barələrində axtarış elan edilməklə, məhkəmə tərəfindən qiyabi həbs qətimkan tədbiri seçilmişdir. Təbii ki, xaricdə gizlənən təqsirləndirilən şəxslərdə həbs edilərək, Azərbaycan istintaq orqanlarına təhvil veriləcəklər. Nəzərə alınmalıdır ki, Azərbaycanda kimliyindən, tutduğu mvqeyindən və statusundan asılı olmayaraq hər kəs qanun qarşısında cavabdehlik daşıyır. Bu baxımdan müxtəlif cinayətlər törətdiklərinə görə, xaricə qaçanlara qarşı Azərbaycanın Baş Prokurorluğunun İstintaq İdarəsinin qaldırdığı cinayət işləri təbiidir. Bununla bağlı onların qeydiyyatda olduqları ünvanlara bildirişlər göndərib və istintaq idarəsinə gəlmələri qeyd olunub. Bir daha Azərbaycanın qanunlarına qarşı hörmətsizlik nümayiş etdirən xaricdə gizlənən antimilli ünsürlər Baş Prokurorluğun İstintaq İdarəsinin çağırışına əməl etməyiblər. Prokurorluq tərəfindən barələrində qiyabi icraat başlanaraq istintaqa çağırılan İmaməddin Əlimanov, Qənimət Zahid, Süleyman Süleymanlı, Elşad Məmmədov, Məhəmməd Mirzəli, Qabil Məmmədov, Orxan Ağayev, Qurban Məmmədov barəsində təqdimatlara baxılıb. Məhkəmə prosesi zamanı sözügedən antimilli ünsürlər müxtəlif müddətlərə qiyabi olaraq azadlıqdan məhrumetmə cəzasına layiq görülüblər. Təbii ki, qiyabi cəza qısa müddət ərzində reallığa çevriləcək. Haqlarında məhkəmə qərarı olanlara gizləndikləri Avropa və ABŞ-da həbs edilərək Azərbaycana gətiriləcəklər. Bu zaman qanunvericiliyin tələbinə uyğun olaraq cəzalarını çəkməli olacaqlar.

**İ.ƏLİYEV**

SON SƏHİFƏ
SƏS
19 may
2026-cı il


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744
7. Bakmətbuat MMC 0502644010

1 nüsxə 1 aylığı 8 AZN
6 aylıq 48 AZN
1 illik 96 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Mədə xorası - hansı hallarda TƏHLÜKƏ BAŞLAYIR?



ARAŞDIRMA

***Mədə xorası mədənin və ya onikibarmaq bağırsağın selikli qişasında yaranan dərin zədələnmədir. Xəstəlik çox vaxt qarının yuxarı hissəsində ağrı, yanma, köp və ürəkbulanma ilə özünü göstərir. Müasir tibbdə bu problem əksər hallarda uğurla müalicə olunsa da, vaxtında diaqnoz qoyulmadıqda və ya düzgün müalicə aparılmadıqda həyati təhlükə yaradan ağırlaşmalara səbəb ola bilər.***

Mədə xorasının əsas səbəbləri arasında Helicobacter pylori infeksiyası, uzun müddət ağrıkəsici və iltihabəleyhinə dərmanların qəbulu, siqaret, alkoqol, qeyri-düzgün qidalanma və davamlı stress göstərilir. Lakin xəstəliyin təhlükəli mərhələyə keçməsi adətən xoranın özü ilə deyil, onun yaratdığı fəsadlarla bağlı olur. SİA mövzu ilə bağlı araşdırma edib.

## Mədə xorası nə vaxt sadə xəstəlik olmaqdan çıxır?

Xoranın ölçüsünün böyüməsi, selikli qişanın dərin qatlarına yayılması və damarları zədələməsi vəziyyəti kəskin şəkildə ağırlaşdıra bilər. İlk mərhələlərdə xəstə yalnız yeməkdən sonra yanma və ya ağrı hiss etsə də, proses irəlilədikcə mədə divarında qanaxma, deşilmə və ya keçid daralması yarana bilər. Ən təhlükəli məqam odur ki, bəzi hallarda ağrı azalır, lakin bu, sağalma deyil, sinir uclarının zədələnməsi və ya ağırlaşmanın başlanması ilə əlaqəli ola bilər.

## Mədə qanaxması niyə ən ciddi ağırlaşmalardan biri sayılır?

Mədə xorası qan damarını zədələdikdə daxili qanaxma başlayır. Bu zaman xəstədə qəfil halsızlıq, başgicəllənmə, nəbzin sürətlənməsi, təzyiqin enməsi, qəhvə çöküntüsünə bənzər qusma və ya qara rəngli nəcis müşahidə oluna bilər.

Bu vəziyyət artıq təcili tibbi yardım tələb edir. Qanaxma davam etdikcə orqanizm sürətlə qan itirir və ağır hallarda həyati təhlükə yaranır.

## Mədə çıxışının daralması hansı problemlərə səbəb olur?

Uzun müddət davam edən xora nəticəsində çapıq toxuması əmələ gələ bilər. Bu toxuma mədədən bağırsağa keçidi daraldaraq qidanın normal hərəkətini çətinləşdirir. Nəticədə xəstədə tez doyma hissi, qusma, arıqlama və qidalanma pozuntuları yaranır. Bu vəziyyət həyat keyfiyyətini ciddi şəkildə azaldır və əlavə müalicə tələb edir.

## Mədə xorası xərçəngə çevrilə bilərmi?

Xora birbaşa olaraq həmişə xərçəng demək deyil. Lakin bəzi mədə yaraları erkən mərhələdə xora formasında görünə bilən bədxassəli proseslərlə qarışa bilər. Bu səbəbdən xüsusilə uzun müddət sağalmayan və təkrarlayan yaralarda endoskopik müayinə və biopsiya vacibdir.

## Hansı əlamətlər təhlükə siqnalı hesab olunur?

Əgər qarının yuxarı hissəsində ağrı ilə yanaşı səbəbsiz arıqlama, qusma, udma çətinliyi, qara nəcis, qanlı qusma və ya davamlı halsızlıq müşahidə olunursa, bu, xəstəliyin ağırlaşdığını göstərə bilər. Belə əlamətlər olduqda mütləq qastroenteroloqa müraciət etmək lazımdır.

## Kimlərdə ağırlaşma riski daha yüksəkdir?

Yaşlı şəxslər, siqaret çəkənlər, qeyri-steroid iltihabəleyhinə dərmanları uzun müddət qəbul edənlər, kortikosteroid istifadə edənlər və müalicəni yarımçıq saxlayan xəstələr daha yüksək risk qrupuna daxildir. Eyni zamanda stress, nizamsız qidalanma və gec diaqnoz da ağırlaşma ehtimalını artırır.

## Mədə xorasının qarşısını almaq mümkündürmü?

Mütəxəssislər bildirirlər ki, mədə xorasının yaranma riskini azaltmaq üçün bir sıra sadə, lakin təsirli tədbirlər görülə bilər:

Helicobacter pylori infeksiyası aşkar edilərsə, müalicə kursunu tamamlamaq;

Ağrıkəsici və iltihabəleyhinə dərmanları yalnız həkim məsləhəti ilə qəbul etmək;

Siqaret və alkoqoldan uzaq durmaq;

Qidalanma rejiminə diqqət yetirmək, uzun müddət ac qalmamaq;

Həddindən artıq stressi azaltmaq;

Davamlı mədə şikayətləri olduqda vaxt itirmədən müayinədən keçmək.

## Azərbaycanda mədə xəstəlikləri nə qədər yayılıb?

Azərbaycanda qastrit, reflüks və mədə xorası ilə bağlı şikayətlər qastroenteroloqlara müraciətlərin əsas səbəbləri arasında yer alır. Qidalanma rejiminin pozulması, fast-food istehlakı, qazlı içkilər, siqaret və stress bu xəstəliklərin artmasında mühüm rol oynayır.

Həkimlərin müşahidələrinə görə, bir çox insan mədə ağrılarını müvəqqəti dərmanlarla sakitləşdirməyə çalışır və yalnız ağırlaşma yarandıqda həkimə müraciət edir. Bu isə diaqnozun gecikməsinə səbəb olur.

## Mədə xorası ilə bağlı ən çox edilən səhvlər hansılardır?

Bu xəstəliklə bağlı ən çox rast gəlinən yanlış yanaşmalar bunlardır:

Ağrının keçməsini sağalma kimi qəbul etmək;

Özbaşına dərman qəbul etmək;

Həkimin təyin etdiyi müalicəni yarımçıq dayandırmaq;

Endoskopik müayinədən yayınmaq;

Pəhriz və həyat tərzi tövsiyələrinə əməl etməmək.

Mədə xorası başlanğıc mərhələdə nəzarət altına alına bilən xəstəlik olsa da, daxili qanaxma, perforasiya, mədə çıxışının daralması və bəzən xərçənglə qarışması səbəbindən təhlükəli mərhələyə keçə bilər.

Əsas məsələ ağrını müvəqqəti azaltmaq deyil, səbəbi müəyyən edib tam müalicə almaqdır. Çünki mədə xorasında ən böyük risk simptomların tanış görünməsi və xəstəliyin uzun müddət ciddi qəbul edilməməsidir. Vaxtında müayinə və düzgün müalicə həyati təhlükənin qarşısını almaqda həlledici rol oynayır.

***Günel Fərzəliyeva***


**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
sesmediaqrup@gmail.com
sesqazeti@gmail.com
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet həftədə iki dəfə nəşr olunur
Tiraj: 2000